Ədalət .- 2025.- 11 aprel(№13).- S.14.



Gülxarə Əhmədova,
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin deputatı

# Azərbaycan və Almaniya: Yeni Əməkdaşlıq Səviyyəsi

**Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin Azərbaycana rəsmi səfəri iki ölkə arasında münasibətlərin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bir daha təsdiqlədi. Səfəri çərçivəsində siyasi, iqtisadi və ekoloji sahələrdə əlaqələrin möhkəmləndirilməsi üçün mühüm məqamlara toxunuldu. Bu isə öz növbəsində iki ölkənin inkişafı üçün geniş perspektivlər açır.**

**Azərbaycan və Almaniya arasında ticarət əlaqələri son illərdə əhəmiyyətli şəkildə genişlənib.**

**Azərbaycan Prezidenti İlham Əliyev alman həmkarının səfərinin iki ölkənin əlaqələrinə yeni təkan verəcəyinə diqqət çəkib."**

**Hesab edirik ki, gələcək illərdə öz ticarət dövriyyəmizin şaxələndirilməsi ilə bağlı daha fəal addımlar atmalıyıq ,xüsusilə bərpaolunan enerji sahəsində- harda ki, Almaniya şirkətlərinin çox böyük təcrübəsi var, Azərbaycanın da çox böyük proqramı, planları var. Biz xarici investorların sərmayəsi hesabına 2030-cu ilə qədər bərpaolunan enerji növlərinin istehsal gücünü 6 qiqavata çatdırmaq fikrindəyik və bu ,tam reallıqdır, bunun bir hissəsi Avropaya ixrac ediləcəkdir."**

**Prezidentlərin mətbuata bəyanatları zamanı Frank-Valter Ştaynmayer olduqca əhəmiyyətli bir məqama da toxunub; " 2022-ci ilsə Azərbaycan Almaniyada çox böyük rol oynayıb. Rusiyadan aldığımız qaz təchizatında dayanma baş verdiyi zaman Azərbaycan üzərinə çox böyük məsuliyyət götürdü və mən buna görə Sizə çox təşəkkür edirəm. Sizin sözlərinizdən elə başa düşdüm ki, burada qaz ilə yanaşı ,infrastrukturun genişləndirilməsinə də ehtiyac var.**

**Beləliklə, infrastrukturun yaxşılaşdırılması üzərində Avropada işləməliyik.Çünki o, hələ də kifayət həcmdə deyil.Bir sözlə, bu görüşlərdən sonra yeni ev tapşırıqlarımız da var".**

**Almaniya Prezidentinin "Qarabağ regionunun Azərbaycan ərazisi olduğunu bilirik, tanıyırıq. Bu, bizim mövqeyimizdir və bu mövqe Azərbaycan tərəfindən də konkretləşdirilə bilər. "- fikirləri isə səfərdən əvvəl baş vermiş bir sıra təxribatlara ən yüksək səviyyədə münasibətin təzahürü idi.**

**Azərbaycan Prezidenti alman həmkarının səfərinin iki ölkənin əlaqələrinə yeni müsbət təkan verəcəyini söyləyib: "İkitərəfli münasibətlərimizin tarixində bu, Almaniya Prezidentinin Azərbaycana birinci rəsmi səfəridir. Əminəm ki, səfərin yekunları bizim ölkələrimizi bir-birinə daha yaxın edəcəkdir".**

**Dövlət başçısı COP29 beynəlxalq iqlim konfransında uğurlu nəticələr əldə edildiyini də bildirib :."Bildiyiniz kimi, keçən il Azərbaycan COP29 beynəlxalq iqlim konfransına ev sahibliyi etmişdir. Bu istiqamət üzrə də bizim Almaniya ilə çox fəal əməkdaşlığımız olub. COP29-da 197 ölkəni təmsil edən 77 mindən çox iştirakçı qeydiyyatdan keçmişdir və bu konfrans böyük, uğurlu nəticələrlə zəngin idi. İştirak etməyən yeganə ölkə Ermənistan olmuşdur. Bu da təbii olaraq təəssüf hissi doğurur. Çünki xüsusilə indiki şəraitdə - Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin uğurla getdiyi bir zamanda Ermənistan tərəfinin bu beynəlxalq konfransı boykot etməsi başa düşülən deyildi."**

**Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsi hər iki ölkənin inkişafına böyük töhfə hesab olunur .Bu gün Azərbaycan və Almaniya arasında iqtisadi əlaqələr yüksək səviyyədədir və Azərbaycan bu ölkə üçün ən vacib ticarət tərəfdaşlarından biridir.**

**Eyni zamanda iki ölkə arasında enerji sahəsində də sıx əməkdaşlıq həyata keçirilir, Azərbaycan Almaniyanın enerji təhlükəsizliyini təmin etməkdə mühüm rol oynayır.**

**Eyni zamanda Almaniya Azərbaycana müasir texnologiyaların təqdim olunmasında ciddi rola sahibdir.**

**Ümid edirik ki, İki ölkə arasındakı əlaqələrin inkişafının sürətləndirilməsi böyük əhəmiyyətə malikdir.**